# "Kollu Koxa"nın həqiqəti, Qılınc Qurbanın məğlubiyyəti



**Kənan Hacı**

İsa Muğanna haqqında yazmaq mənimçün çətindir. Uzun müddət bu məsuliyyətin altına girməyin çətinliyi ilə üzüzə qaldım. Hardan, necə başlayım? Onun yaradıcılığına hansı bucaqdan yanaşım? Uşaq yaşlarımda Azərbaycan ədəbiyyatının üzdə olan nümayəndələrinin əksəriyyətinin əsərlərini oxumuşdum. Anamın balaca kitabxanasında nə görürdümsə, götürüb oxuyurdum. Bir gün əlimə yaşıl cildli bir kitab çıxdı, bu, İsa Hüseynovun (onda hələ Muğanna deyildi) "Dan ulduzu" kitabı idi. Anamın kitabxanasında onun daha iki kitabı vardı - "Bizim qızlar" və "Yanar ürək". O kitablar indi də mənim kitabxanamdadır. Yazıçı sonralar bu əsərlərindən imtina edəcəkdi. Amma mənim İsa Muğanna yaradıcılığı ilə tanışlığım həmin əsərlərdən başladı. Təbii, on bir-on iki yaşlı uşaq üçün bu əsərlərin oxunması çox tez idi, "Bizim qızlar" və "Dan ulduzu"nun fabulasını tamamilə unutmuşam, "Yanar ürək"i isə sonralar yenidən oxudum. Bu, həmin əsərdir ki, sonralar onun bətnindən "İdeal" kimi möhtəşəm, fundamental bir roman doğuldu. Bu roman İsa Muğanna zəkasının zirvəsi idi. Yazıçı ömrünün sonuna qədər bu əsərin üzərində işlədi, ona əlavələr elədi.

"Kollu Koxa"nı oxuyanda vur-tut on dörd yaşım vardı. Xatırlayıram, qış gecələrindən biri idi, işıqlar sönmüşdü, çöldə çovğun qarı sovurub pəncərələrə çırpırdı. Mən kiçik yataq otağında şam yandırıb yorğana bürünmüşdüm. Şam işığında "Kollu Koxa"nı oxuyurdum. Bir-iki dəfə anam qapını aralayıb hələ də yatmadığımı görəndə dedi ki, ay bala, gözlərin xarab olacaq, yat, səhər qalxıb oxuyarsan. Amma həmin gecə mən povesti oxuyub bitirdim. Bu əsərin təsiri uzun müddət məni tərk etmədi. O vaxt, on dörd yaşımda düşünürdüm ki, bundan yaxşı əsər heç vaxt oxumamışam. Sadə süjet xətti olan bu əsərdə yazıçı mürəkkəb mətləbləri, sarsıdıcı həqiqətləri oxucuya çatdırır. Digər povestlərində daim at belində, məğrur görkəmdə gördüyümüz vicdan mücəssəməsi olan Qılınc Qurbanı burda məğlub durumda görürük. Qılınc Qurbanın Kollu Koxanın dəmir məntiqi qarşısında aciz duruma düşməsi məni ilikləriməcən sarsıtmışdı. Bu obrazlar İsa Muğannanın yaxşı tanıdığı adamlar idi və ona görə də əsərdə də dipdiridirlər. Gəncliyində atası haqqında bir oçerk yazan İsa onu oxumaq üçün Mehdi Hüseynə verir, bir müddət sonra yazıçı ona iradını bildirir. Niyə atandan yazmısan, deyə soruşur. İsa Muğannanın sonralar çox məşhur olan cavabı bu olur: Çünki atamı yaxşı tanıyıram. Bu haqda yazıçı ömrünün sonlarında qələmə aldığı "Həyatımdan səhifələr" avtobioqrafik əsərində geniş bəhs edib.

Qılınc Qurbanın məğlubiyyəti əslində onun tapındığı, inandığı dəyərlərin puçluğuna işarədir. Yazıçının ötürdüyü mesaj budur. Hamının qəhrəman kimi baxdığı, mifə çevirdiyi insanlar, əslində, özləri də bilmədən cəmiyyətin inkişafına mane olurlar. Sonralar yazıçı yazırdı ki, "Tütək səsi" povestində müharibənin yaratdığı "istrebitelnıy batalyon"un komandiri Qılınc Qurban xalq həyatında psixoloji sarsıntıların yaranmasına, qaçaqların öldürülməsinə, gənclərin iradəsinin sındırılmasına səbəb olur. Kollu Koxa isə Qılınc Qurban və kolxoz sədri Cavanşir üçün vicdan məhkəməsini məhz Cinda qarının komasında qurur. Azərbaycan ədəbiyyatında bənzəri olmayan bir obrazdır Kollu Koxa. Yazıçı bu obraz vasitəsilə yatmış vicdanlara xitab edir, insanları yalanın yox, həqiqətin yanında olmağa səsləyir. Yazıçı bu əsəri 1969-cu ildə yazıb. Bu əsər buzların əridiyi, sistemə ilk çatların düşdüyü, insanların şüurundan qorxunun az da olsa çəkildiyi bir zamanın məhsuludur. Bundan əvvəl rejimin iç üzünü açan "Yanar ürək" yazılmışdı. Düşünürəm ki, sovet sisteminin çöküşünü həm də bu əsərlər tezləşdirdi.




"Kollu Koxa"nı oxumayan az adam tapmaq olar. Bu balaca povest mənim uşaq yaddaşımda dərin iz buraxan əsərlərdən oldu. Bu yazını yazmazdan öncə, iyirmi yeddi ildən sonra "Kollu Koxa"nı yenidən oxudum. Mənə bu povesti sevdirən səbəbi özüm üçün bir daha aydınlaşdırmaqdan ötrü bir də oxumağı lazım bildim. O dövrdə hamı həqiqət təşnəsi idi, insanlar qırmızı yalanlardan yorulmuşdular, bezmişdilər. "Kollu Koxa" yalanın, saxtakarlığın, riyakarlığın üzünə çırpılmış tərs şapalaq idi. Ölkədə yüzlərlə, minlərlə Cavanşir kimi kolxoz sədrləri, Qılınc Qurbanlar vardı. Amma Kollu Koxalar çox az idi, onların sözünü eşidən yox idi, onların səsi hay-küyün içində eşidilmirdi. İsa Muğanna onu diqqət mərkəzinə çəkdi, üstünü unlu görüb adını dəyirmançı çağırmayın, onun da sözünü eşidin, görün, Kollu Koxa niyə hamıya ayama qoşur, Qılınc Qurban kimi sözünün dalı da, qabağı da kəsən o boyda zəhmli kişi onun qarşısında niyə büzüşüb yumağa dönür, dedi. Hamı qəhrəmanları öyür, vəsf edir, amma bu qəhrəmanlıq nələrin bahasına əldə edilib? Qılınc Qurban həm də öz mifinin əsiri idi, qocalıb taqətdən düşəndə belə kolxoz sədri Cavanşir öz ad-sanı, nüfuzu naminə onun adının kölgəsinə sığınmaq istəyir. Qılınc Qurban həqiqəti görə bilmir, etiraz etməyə özündə güc tapa bilmir. Müəyyən mənada o, sosialist sisteminin qurbanıdır. Cəmiyyətdə, el-obada hörmət, nüfuz qazanan adamlar sistemin əksinə gedə bilməzdilər, sistem onları əzib yerlə bir edərdi. Kollu Koxa isə heç kimə tabe deyildi, savadsız bir kəndli balası idi. Amma vicdan üçün savad tələb olunmur. Kollu Koxanın vicdanı oyaq idi, onu bu qədər güclü edən də vicdanı idi. Həqiqət onun silahı idi.

Aradan uzun illər keçib. Oxuduğum kitabların sayını-hesabını itirmişəm. Bu gün məndən Azərbaycan ədəbiyyatında on ən yaxşı əsərin adlarını soruşsalar, həmin onluqda mütləq "Kollu Koxa" da olacaq. Həmişə düşünmüşəm və sidqürəkdən inanmışam ki, "Kollu Koxa"nı oxuyan heç vaxt pis adam ola bilməz.

kaspi.-2017.-11-13 fevral.-S.19.